Keyfiyyətin Təminatı və Qiymətləndirmə Depatamentinin (KTQD)

ƏSASNAMƏSİ

1.Umumi müdəalar

1.1. KTQD OYU-nun struktur bölməsi olaraq OYU-da vəzifə bölgüsünə əsasən birbaşa olaraq Rektora tabedir.

1.2.KTQD OYU-nun Rektorunun əmrinə əsasən yaradılır və ləgv edilir.

1.3.KTQD-ə rəhbərliyi Rektorun əmri ilə təyin edilən departament rəhbəri edir.

1.4.KTQD-in mütəxəssisləri ali təhsilli və elmi-pedaqoji staja malik olduqda depatament rəhbərinin təqdimatı və OYU-nun Rektorunun əmri ilə təyin edilir və azad olunurlar.

1.5.KTQD öz fəaliyyətində rəhbər tutur:

- AR-ın qüvvədə olan əmək qanunvericiliyini,

-AR-ın Təhsil haqqında qanunlarını,

-Keyfiyyətin təminatı sahəsindəki təhsil siyasətini,

-OYU-nun təhsil işcilərinin intizam Nizamnaməsini,

-OYU-nun Rektorunun əmrlərini və göstərişlərini,

- bu Əsasnaməni.

2. Depatamentin strukturu:

2.1. KTQD-in strukturu və ştat sayı OYU-nun Rektoru tərəfindən müəyyən edilir və təsdiq edilir,

2.2. KTQD-nin mütəxəssisləri Departamentin rəhbərinə və müvafik Prorektora hesabatlı olurlar.

3. KTQD-in funksiyaları

3.1. Mövcud standartları nəzərə alaraq tədrisin keyfiyyətinə nəzarət üzrə işin təşkili,

3.2.Təhsilin və tədrisin keyfiyyətinin artırılması, onların Avropa Təhsil Standartlarına, ölkədaxili və xarici bazarın tələbatına uygun olmasını təmin edən tədbirlərin həyata keçirilməsi,

3.3.Tədrisin keyfiyyətinin aşagı düşməsi səbəblərinin araşdırılması işinin təşkili, onların aradan qaldırılması tədbirlərinin kecirilməsi,

3.4.Universitetdə hazırlanan tədris-metodiki vəsaitlərin(sillabus,proqram,dərslik və digər sənədlər) keyfiyyət standartlarına uygunlugu monitorinqinin aparılması,

3.5. Tədris prosessinin bütün mərhələlərində keyfiyyətə nəzarət mexanizmlərinin işlənib hazırlanması,

3.6. Yeni keyfiyyətli tədris üsulları və metodikaları ilə baglı seminar və treyninqlərin kecirilməsi,

3.7. Tədrisin keyfiyyətinin yüksəldilməsi üçün təkliflərin və təlimatların hazırlanması.

4. KTQD-in əsas vəzifələri

4.1. Yüksək keyfiyyətli tədrisin və təhsilin həyata keçirilməsi təminatını yaratmaq,

4.2.Keyfiyyətsiz tədris prosessinin qarşısını almaq,

4.3. Tədrisin metodik və metodoloji təminatının müasir Avropa Təhsil Standartlarına uygun aparılmasının təminatı,

4.4 OYU-nun struktur bölmələri arasında komunikasiyalar üzrə nizam-intizamın yaradılması,

4.5. Mütamadi olaraq tədrisin keyfiyyətini ölçmək naminə monitorinqlər keçirmək və reytinq cədvəlləri hazırlamaq.

5. Departamentin hüquqları

5.1. OYU-nun aidiyyəti struktur bölmələri rəhbərlərindən tələb etmək:

-təqdim edilən tədris-metodik materialların keyfiyyətinin artırılmasına yönəlik tədbirlərin həyata keçirilməsini,

-departamentə öz fəaliyyətini yerinə yetirmək üçün zəruri olan sənədlərin və digər informasiyanın təqdim edilməsini.

5.2. OYU-nun struktur bölmələri tərəfindən texniki və təsərrüfat təminatının olması,

5.3. Bu Əsasnaməni əsas tutaraq KTQD-in tədbirlərinin təşkilinə OYU-nun struktur bölmələrindən təşkilati köməyi tələb etmək,

5.4. Universitetin fəaliyyətinin yaxşılaşdırılması üzrə baxılmaq üçün Rektora təkliflər hazırlamaq,

6. Kommunikasiyalar

6.1. KTQD Təhsil Nazirliyi yanında Təhsildə Keyfiyyətin Təminatı Agentliyi (TKTA) ilə əlbir işləyir və Agentliyin OYU-da tədbirlərini təşkil edir,

6.2. KTQD öz vəzifə borclarının və funksiyalarının icrası zamanı OYU-nun digər struktur bölmələri iləqarşılıqlı əlaqələrini yaradır.

7. Departamentin məsuliyyəti

7.1 KTQD tərəfindən işin vaxtında və yerinə yetirilmə keyfiyyətinə görə məsuliyyəti departament rəhbəri daşıyır,

7.2. KTQD rəhbərinin şəxsi məsuliyyəti:

-depatament tərəfindən keyfiyyət üzrə verilən təlimat və göstərişlərin qanunvericiliyə uygun olması,

-tədrisin keyfiyyətinə dair məlumatların tərtib,təsdiq və təqdim edilməsi,

-standartlara uygun olmayan tədris materiallarının istifadəsinə imkan verməmək.

7.3. KTQD-in işçiləri içərisində OYU-nun Rektoru tərəfindən təsdiq edilmiş vəzifə təlimatlarını rəhbər tutmaq.